E-1485

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər–S.M.Rəsulova, F.İ.Məmmədov

etiraz ərizəsini verən “Niels Mulder” şirkətinin */ünvan: Viottastraat 15, 1077 JM Amsterdam, Netherlands/* nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

15.12.2017 il tarixdə “Niels Mulder” şirkətinə */ünvan: Viottastraat 15, 1071 JM Amsterdam, Netherlands (NL)/* aid “ ”əmtəə nişanının (2016 33300 saylı iddia sənədi) 9, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 04.10.2017 il tarixli qərarının (526) nömrəli kodu altında verilmiş qeydə qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şuraesına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, “Niels Mulder” hesab edir ki, aşağıdakı əsaslara görə 2016 33188 saylı, “ ” əmtəə nişanının 9, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə *“Əmtəə nişanında “V” hərf işarəsi hüquqi mühafizə*

*obyekti deyildir”* göstərilməklə mühafizə verilməməsi (disklamasiya edilmə) ilə bağlı rədd qərarı ləğv olunmalı və nişanın elementləri disklamasiya olunmamalıdır. “Ekspertiza” *“Əmtəə nişanında “V” hərf işarəsi hüquqi mühafizə obyekti deyildir”* kimi disklamasiya edərək “V” elementinə mühafizə verilməməsi ilə bağlı qərarı verərkən, heç bir bildiriş verməmiş, öz qərarını əsaslandırmamışdır. “Niels Mulder” şirkəti bildirir ki, “ ” əmtəə nişanı EU 015892714 -05.10.2016 ərizəsi əsasında konvensiya ilkinliyi istənilməklə verilmiş, mühafizə olunur və heç bir disklamasiya yoxdur. “ ” əmtəə nişanı mənşə ölkəsi Niderlandda Benelux 1003286 saylı (Ərizə №1340559 06.10.2016) qeydiyyatla mühafizə olunur və heç bir disklamasiya yoxdur. “ ” əmtəə nişanı Gürcüstanda M 27877 sayla qeydiyyatdadır, mühafizə olunur, heç bir disklamasiya yoxdur. “ ” əmtəə nişanı Ukraynada EU 015892714 -05.10.2016 konvensiya ilkinlikli ərizə əsasında verilmiş və 27.11.2017-cı il tarixli 234671 sayla qeydiyyatdadır, mühafizə olunur heç bir disklamasiya yoxdur. “ ” əmtəə nişanı Kazaxıstanda EU 015892714 -05.10.2016 konvensiya ilkinlikli ərizə əsasında 25.11.2016 tarixli ərizə ilə No.77889 verilmiş və 15.09.2017-cı il tarixli 57170 sayla qeydiyyatdadır, mühafizə olunur, heç bir disklamasiya yoxdur. “Niels Mulder” şirkəti yuxarıdakılara əsaslanaraq bildirir ki, “ ” əmtəə nişanı geniş və intensiv istifadə olunmaqla fərqləndirmə qabiliyyətinə malik olan əmtəə nişanıdır. “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanunun 5-ci maddəsinin ikinci hissəsinin yekun bəndinə və “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının 4-cü maddəsinin yekun bəndinə əsasən: “ İddia sənədinin verildiyi tarixədək bu maddənin 1-ci hissəsinin “b”, “c”, “d” bəndlərində göstərilən, lakin istifadəsi zamanı fərqləndirmə qabiliyyətinə malik olan əmtəə nişanının qeydə alınmasından imtina edilə bilməz və ya həmin əmtəə nişanı qeydə alınmışdırsa, qeydə alınma etibarsız sayıla bilməz”. Sənaye Mülkiyyətinin qorunması haqqında” Paris Konvensiyasının 6-quinquies maddəsinə əsasən: *“Mənşə ölkəsində lazımı qaydada qeydiyyata alınan hər bir əmtəə nişanı İttifaqın istənilən digər ölkəsində mühafizə üçün iddia təqdim edilə bilər və bu maddə də göstərildiyi kimi, təshih olunaraq, olduğu kimi, mühafizə olunur. Bu ölkələr qeydiyyatın tam həyata keçirənə qədər mənşə ölkəsində qeydiyyatın səlahiyyətli orqan tərəfindən verilmiş şəhadətnaməsini tələb edə bilər. Belə şəhadətnamələrin leqallaşdırılması tələb edilmir.”* “ ” əmtəə nişanı mənşə ölkəsində və digər ölkələrdə qeydiyyata alınması həmin nişanın fərqlənmə qabiliyyətinin olmasını, heç bir nişanla qarşıdurmanın olmamasını sübut edir. Şərh olunanlara əsaslanaraq, Paris Konvensiyasının 6-quinquies maddəsinə və Azərbaycan Respublikası “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında qanunun” 5-ci maddəsinin ikinci hissəsinin yekun bəndinin və “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası” Qaydalarının 4-cü maddəsinin yekun bəndinə əsaslanaraq “Niels Mulder” hüquqi şəxs tərəfindən verilmiş “ ” əmtəə nişanının 9, 35, 36, 38, 41, 42 və 45-ci sinif əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 04.10.2017-ci il tarixli qərarının “Əmtəə nişanında “V” hərf işarəsi hüquqi mühafizə obyekti deyildir” göstərilməklə mühafizə verilməməsi ilə bağlı hissəsinin ləğv olunması və nişanın elementlərinə disklamasiyanın çıxarılması ilə bağlı yeni qərar verilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanovun çıxışını dinləyib, hesab etdi ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, “ ”əmtəə nişanının 09, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmasına dair 2016 33300 nömrəli iddia sənədi 25.11.2016 il tarixində “Niels Mulder” şirkəti tərəfindən patent müvəkkili vasitəsilə Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinə (AzPatent) verilmişdir.

“ ”əmtəə nişanının qeydiyyata alınması haqqında qərar 04.10.2017 tarixində verilmişdir. Həmin qərarın (526) nömrəli kodun altında xüsusi qeydində göstərilmişdir ki, *“Əmtəə nişanında “V” hərf işarəsi hüquqi mühafizə obyekti deyildir”.*

İddiaçı qərarın (526) nömrəli kodun altında xüsusi qeydi ilə razı olmamış və iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov Apellyasiya şurasına etiraz ərizəsi vermişdir.

Apellyasiya şurası müəyyən etdi ki, iddiaçı “ ” əmtəə nişanının qeydiyyata alınmasına dair iddia sənədi (2016 33300) verən zaman ərizədə disklamasiya barədə heç bir qeyd etməmişdir. Belə olan halda ekspertiza qərarı müsbət olsa belə, qərarın verilməsindən əvvəl disklamasiya ilə bağlı iddiaçıya bildiriş göndərməli və ona, ekspertizanın nəticəsi barədə bildiriş ilə tanış olaraq cavab vermək (lazım olanda) imkanı yaratmalıdır, çünki ekspertizanın nəticəsi iddiaçının hüquqlarını məhdudlaşdırır. Həmçinin “V” hərf işarəsinin disklamasiyası ilə bağlı ekspertiza qərarı əsaslandırılmamış və iddiaçıya bu barədə bildiriş göndərilməmişdir. Bu isə bilavasitə iddiaçının hüquqlarının məhdudlaşdırılması deməkdir.

Apellyasiya şurası təqdim edilmiş sənədləri araşdıraraq müəyyən etdi ki, “ ” əmtəə nişanı mənşə ölkəsi Niderlandda 06.10.2016 il tarixdə disklamasiyasız qeydiyyata alınmışdır (qeydiyyat nömrəsi 1003286). Təqdim edilmiş sənədlərdən görünür ki, həmin əmtəə nişanı 2016-cı il tarixindən başlayaraq dünya bazarında istifadə olunur və əmtəə nişanının məyarlarına cavab verir.

“Sənaye Mülkiyyətinin mühafizəsi üzrə” Paris Konvensiyasının 6-quinquies maddəsinin “A” bəndində göstərilmişdir ki, “Mənşə ölkəsində müəyyən olunmuş qaydada qeydiyyata alınmış hər bir əmtəə nişanı, İttifaqın digər ölkələrində, bu Maddədə göstərilmiş şərtlər nəzərə alınmaqla olduğu kimi mühafizə edilir”.

Apellyasiya şurası hesab edir “ ” əmtəə nişanında “V” hərf işarəsi mühafizə olunmayan element sayılmamalıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini, “Sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyası”nın " 6-quinquies" maddəsinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “ ”əmtəə nişanının (2016 33300 nömrəli iddia sənədi) 9, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 04.10.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili M.Y.Qurbanov tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və iddia təmin edilsin.

2. “ ”əmtəə nişanının (2016 33300 nömrəli iddia sənədi) 9, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 04.10.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeyd *“Əmtəə nişanında “V” hərf işarəsi hüquqi mühafizə obyekti deyildir”* etibarsız sayılsın.

3. Həmin Qərarın 1-ci, 2-ci bəndlərində göstərilənləri nəzərə alaraq, Əmtəə nişanları Dövlət reyestrində “ ” əmtəə nişanı (2016 33300 nömrəli iddia sənədi) 9, 35, 36, 38, 41, 42 və 45-ci siniflərin əmtəələri və xidmətləri üzrə xüsusi qeydsiz qeydiyyata alınsın.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: F.İ.Məmmədov

S.M.Rəsulova